**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**

Təhsil Nazirliyinin 18 aprel 2012-ci il tarixli
597 nömrəli əmri ilə təsdiq edilmişdir

# MƏKTƏBƏQƏDƏR, ÜMUMİ, İLK PEŞƏ-İXTİSAS VƏ MƏKTƏBDƏNKƏNAR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN RƏHBƏR VƏ PEDAQOJİ KADRLARI ÜÇÜN İXTİSASARTIRMA TƏHSİLİNİN KURİKULUM ÇƏRÇİVƏSİ

**Bakı 2012**

# GİRİŞ

Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun, "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın (bundan sonra "Qayda"), "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)", "İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulum)", "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı", digər normativ-hüquqi sənədlərin tələblərinə uyğun olaraq və ixtisasartırma təhsili sahəsində beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmışdır.

İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsi aşağıda göstərilən dövlət təhsil müəssisələrində işləyən rəhbər və pedaqoji kadrların ayrı-ayrı kateqoriyaları üçün ixtisasartırma təhsilinin minimum həddini əks etdirir, bu kateqoriyalar üzrə ixtisasartırma modullarını və modullar üzrə təlim proqramlarının siyahısını əhatə edir:

- məktəbəqədər təhsil müəssisələri (körpələr evi, körpələr evi-uşaq bağçası, uşaq bağçası, xüsusi uşaq bağçası);
- ümumi təhsil müəssisələri (ibtidai, orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr);
- ilk peşə-ixtisas təhsili müəssisələri (peşə məktəbləri, peşə liseyləri);
- məktəbdənkənar təhsil müəssisələri (uşaq yaradıcılıq mərkəzləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri, ekoloji tərbiyə və təcrübə mərkəzləri, texniki yaradıcılıq mərkəzləri, turizm və diyarşünaslıq mərkəzləri, məktəbdənkənar iş mərkəzləri, estetik tərbiyə və bədii yaradıcılıq mərkəzləri və s.).

İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsi bu təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları, ixtisasartırma proqramlarını hazırlayan, təklif edən və həyata keçirən əlavə təhsil müəssisələri, müvafiq sahədə çalışan təhsil mütəxəssisləri, həmçinin geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

## 1. İXTİSASARTIRMA TƏHSİLİNƏ VERİLƏN ÜMUMİ TƏLƏBLƏR, GÖZLƏNİLƏN NƏTİCƏLƏR VƏ BEYNƏLXALQ TƏCRÜBƏDƏ MÖVCUD YANAŞMALAR

**1.1. İxtisasartırma təhsilinə verilən ümumi tələblər.** "Qayda"ya uyğun olaraq ixtisasartırma təhsili əlavə təhsilin bir istiqaməti olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan kadrların fasiləsiz təhsil almaq imkanını təmin etmək məqsədilə əlavə təhsil müəssisələri tərəfindən həyata keçirilən təhsil növüdür.

İxtisasartırma təhsilinin əsas məqsədi pedaqoji işçilərin ixtisası üzrə intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini, daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasını, ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal, səmərəli iştirakını təmin etməkdir.

Eyni zamanda ixtisasartırma təhsili aşağıdakı ümumi tələblərə cavab verməlidir:

- dinləyicilərin fərdi maraq və ehtiyacları təmin edilməlidir;
- ixtisasartırma təhsili sistemində rəqabət mühiti formalaşdırılmalı, dövlət təhsil müəssisələri ilə yanaşı qeyri-hökumət təşkilatlarının və özəl qurumların da prosesdə iştirakı üçün şərait yaradılmalıdır;
- müəssisəəsaslı ixtisasartırma modelləri inkişaf etdirilməlidir;
- ixtisasartırma təhsilinin Avropa və dünya təhsil məkanına inteqrasiyası təmin edilməlidir;
- dinləyicilərin ixtisasartırma təhsilinə cəlb edilməsi üçün motivasiya yaradılmalıdır.

**1.2. Gözlənilən nəticələr.** İxtisasartırma təhsili nəticəsində rəhbər və pedaqoji kadrlar qarşılıqlı əlaqədə olan və bir-birini tamamlayan aşağıdakı sahələr üzrə bilik, bacarıq və dünyagörüşlərini yeniləşdirir, təkmilləşdirir və inkişaf etdirirlər:

- *ümumi pedaqoji-psixoloji biliklər, bacarıqlar və müasir düşüncə tərzi;*
- *ixtisaslar üzrə biliklər, bacarıqlar və müasir təlim strategiyaları;*
- *ümumi mədəni səviyyəni və yenilikləri əks etdirən biliklər, bacarıqlar və vərdişlər.*

İxtisasartırma təhsilini müvəffəqiyyətlə başa vuran müdavimlər həmçinin aşağıdakı istiqamətlər üzrə yeni bacarıq və vərdişlər əldə edirlər:

*əməkdaşlıq:* ictimai həyatda fəal iştirak edir, hər bir öyrənənə fərdi yanaşır və onun gizli bacarıqlarını üzə çıxara bilir, təlim və tədris fəaliyyərini təkmilləşdirmək məqsədi ilə həmkarları ilə əməkdaşlıq edir;

*biliklərlə, texnologiya və məlumatla işləmək:* biliyin və texnologiyanın müxtəlif növləri ilə, o cümlədən informasiya-kommunikasiya texnologiyaları ilə işləyə bilir və təlim fəaliyyətində səmərəli şəkildə tətbiq edir, məlumat şəbəkələri vasitəsilə öyrənənləri istiqamətləndirir və müvafiq bilik, bacarıq və məlumatların əldə edilməsində onlara köməklik edir;

*cəmiyyətdə işləmək:* sosial peşəkarlığa malik olur, müasir standartlara uyğun olaraq öyrənənlərin hərtərəfli inkişafında fəal iştirak edir və üzərinə düşən vəzifələr üçün məsuliyyət daşımağa hazır olur.

**1.3. İxtisasartırma təhsili sahəsində beynəlxalq təcrübədə mövcud yanaşmalar.** İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsi hazırlanarkən bu sahədə beynəlxalq təcrübədə formalaşmış aşağıdakı yanaşmalar da nəzərə alınmışdır:

*Yüksək ixtisas dərəcəsi əldə etmək.* Rəhbər və pedaqoji kadrlar ali və ya orta ixtisas təhsili müəssisələrini bitirdikləri üçün pedaqogika, psixologiya və müvafiq ixtisas fənləri üzrə biliklərə, öyrənənləri istiqamətləndirmək və onların öyrənməsinə köməklik etmək üçün lazım olan əsas bacarıqlara və səriştələrə, həmçinin təhsilin idarəedilməsi, onun ictimai, siyasi və mədəni əsasları haqqında müəyyən təsəvvürlərə malik olurlar. Lakin həmin bilik, bacarıq, səriştə və təsəvvürlər ixtisasartırma təhsili yolu ilə daim yeniləşdirilməli, təkmilləşdirilməli, inkişaf etdirilməli və nəticədə daha yüksək ixtisas dərəcəsi əldə edilməlidir.

*Ömür boyu öyrənmək.* Pedaqoji kadrlar əmək fəaliyyətləri dövründə fasiləsiz olaraq öz bilik və peşəkarlıq səviyyələrini yüksəltməlidirlər. İşə götürənlər də pedaqoji kadrların peşə üzrə bilik və bacarıqlarını, pedaqoji təfəkkürünü yeniləşdirməyin, inkişaf etdirməyin və təkmilləşdirməyin zəruriliyini, həmçinin fəaliyyətlərinin səmərəliliyini artırmaq üçün onların fasiləsiz olaraq yeni biliklər və bacarıqlar əldə etməsinin əhəmiyyətli olduğunu nəzərə alaraq ixtisasartırma təhsilini təşkil etməlidir.

*Fəallıq və təcrübə mübadiləsi.* Rəhbər və pedaqoji kadrlar ixtisaslarını artırmaq və peşəkarlıq səviyyələrini daha da inkişaf etdirmək məqsədi ilə daim fəal axtarışda olmalı, ölkə daxilində və beynəlxalq səviyyədə həmkarları ilə təcrübə mübadiləsi aparmalıdır.

*Tərəfdaşlıq.* Rəhbər və pedaqoji kadrların ixtisartırma təhsilinə olan təlabatlarını, arzu və istəklərini öyrənmək və təklif olunan təhsil proqramlarında nəzərə almaq üçün əlavə təhsil müəssisələri öz fəaliyyətlərini müvafiq təhsil müəssisələri, təhsili idarəetmə orqanları və digər maraqlı tərəflərlə qarşılıqlı əməkdaşlıq şəraitində təşkil etməlidir.

## 2. RƏHBƏR VƏ PEDAQOJİ KADRLARIN KATEQORİYALARI

İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsində dövlət təhsil müəssisələrində çalışan rəhbər və pedaqoji kadrlar aşağıdakı kateqoriyalar üzrə qruplaşdırılır:

- məktəbəqədər təhsil müəssisələrinin metodistləri və tərbiyəçiləri;
- məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri;
- məktəbəqədər təhsil müəssisələrinin musiqi rəhbərləri;
- sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrinin müəllim (tərbiyəçi)-loqoped və müəllim (tərbiyəçi)-defektoloqları;
- ümumi təhsil müəssisələrinin rəhbərləri;
- ümümi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin müəllimləri;
- ümumi təhsil müəssisələrinin gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri;
- praktik psixoloqlar;

- kitabxanaçılar və kitabxana müdirləri;
- ümumi təhsil müəssisələrinin tərbiyəçiləri;
- ümumi təhsil müəssisələrinin uşaq birliyi təşkilatı rəhbərləri;
- ilk peşə-ixtisas təhsili müəssisələrinin rəhbərləri;
- ilk peşə-ixtisas təhsili müəssisələrinin baş və istehsalat təlimi ustaları;
- ilk peşə-ixtisas təhsili müəssisələrinin peşə-ixtisas fənn müəllimləri;
- məktəbdənkənar təhsil müəssisələrinin rəhbərləri;
- məktəbdənkənar təhsil müəssisələrinin metodistləri və təlimatçıları.

## 3. İXTİSASARTIRMA TƏHSİLİNİN MƏZMUNU

**3.1. İxtisasartırma modulları.** "Qayda"ya uyğun olaraq ixtisasartırma təhsili üzrə Kurikulum Çərçivəsində rəhbər və pedaqoji kadrların müəyyən edilmiş bütün kateqoriyaları üçün ixtisasartırma təhsilinin aşağıdakı üç təlim modulu üzrə həyata keçirilməsi nəzərdə tutulur:

**I modul** - peşə fəaliyyətinin ümumi əsasları üzrə təlim;
**II modul** - ixtisas sahələri üzrə təlim;
**III modul** - innovasiyalar üzrə təlim.

Birinci iki modula daxil olan ixtisasartırma proqramları Azərbaycanda təhsil sisteminin ümumi ehtiyaclarının ödənilməsinə və təhsilin strateji məqsədlərinin həyata keçirilməsinə xidmət edir. Bu modullar üzrə proqramların siyahısı Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

Üçüncü modul üzrə proqramlar təhsil işçilərinin bilavasitə fərdi maraq və ehtiyaclarının ödənilməsinə xidmət edir. Bu modul üzrə istənilən sayda çevik təlim proqramları, ayrı-ayrı proqramların mövzuları, məqsədləri, vəzifələri, məzmunu, metodologiyası və təlim saatları əlavə təhsil müəssisələri tərəfindən təklif edilir.

**Ayrı-ayrı modullar üzrə ümumi məqsədlər və gözlənilən ümumi təlim nəticələri**

| № | Modullar | Ümumi məqsədlər | Gözlənilən ümumi təlim nəticələri |
|---|---|---|---|
| 1. | **I modul** | Peşə fəaliyyətinin ümumi əsasları, təhsilin və təlim-tədris prosesinin idarəedilməsi, ümumi pedaqogika, psixologiya və sosiologiyanın məzmununda və metodologiyasında edilən yeniliklər, təhsilin fəlsəfi, elmi-metodoloji, sosial-iqtisadi, hüquqi, təcrübi və s. əsasları haqqında yeni bilik və bacarıqların aşılanması, peşə vərdişlərinin və müasir dünyagörüşünün formalaşdırılması | Modul üzrə təlimi müvəffəqiyyətlə başa vurmuş dinləyici:<br>• peşə fəaliyyətinin ümumi əsaslarını şərh edir;<br>• ümumi pedaqogika, psixologiya və sosiologiyanın məzmununda və metodologiyasında edilən yenilikləri izah və şərh edir, onları öz peşə fəaliyyətində tətbiq edə bildiyini nümayiş etdirir;<br>• təhsilin fəlsəfi, elmi-metodoloji, sosial-iqtisadi, hüquqi, təcrübi və s. əsaslarını izah və şərh edir;<br>• təhsilin və təlim-tədris prosesinin idarəedilməsi, liderlik qabiliyyəti, valideynlərlə əlaqə, ünsiyyət və peşə fəaliyyətinin digər müvafiq sahələri üzrə yeni peşə vərdişlərinə və müasir dünyagörüşünə malik olduğunu nümayiş etdirir. |
| 2. | **II modul** | Rəhbər və pedaqoji kadrların ixtisasları üzrə fənnin didaktikası və | Modul üzrə təlimi müvəffəqiyyətlə başa vurmuş dinləyici: |

| | | | |
|---|---|---|---|
| | | metodologiyası, fənnin məzmununda və tədrisi metodikasında edilən yeniliklər, müvafiq təhsil sistemi və onun pilləsi üzrə yeni kurikulumların tətbiqi, fənnin tədrisində pedaqoji texnologiyalardan, İKT-dən istifadə və s. üzrə yeni bilik və bacarıqların aşılanması, peşə vərdişlərinin və müasir dünyagörüşünün formalaşdırılması | • ixtisası üzrə fənnin didaktikasını və metodologiyasını izah və şərh edir;<br>• fənnin məzmununda və tədrisi metodikasında edilən yenilikləri şərh edir, onları öz peşə fəaliyyətində tətbiq edə bildiyini nümayiş etdirir;<br>• kurikulum islahatının əhəmiyyətini əsaslandırır;<br>• müvafiq kurikulumların strukturunu, məzmununu və səciyyəvi xüsusiyyətlərini şərh edir;<br>• müvafiq kurikulumların tətbiqi üzrə zəruri bilik və bacarıqlar əldə etdiyini, peşə vərdişlərinə malik olduğunu nümayiş etdirir;<br>• təlim-tədris prosesində resurslardan istifadənin əhəmiyyətini şərh edir, zəruri təlim-tədris materiallarını və vasitələrini seçmək, hazırlamaq və müxtəlif resurslardan səmərəli istifadə etmək bacarığına malik olduğunu nümayiş etdirir;<br>• fənnin tədrisində İKT-dən istifadə üzrə yeni bilik və bacarıqlara, peşə vərdişlərinə və müasir dünyagörüşünə malik olduğunu nümayiş etdirir. |
| **3.** | **III modul** | Peşə fəaliyyəti üzrə innovativ nəzəriyyələrə, üsullara və təcrübəyə, təlim və tədris üzrə yeni texnologiyalara (fəal təlim, tənqidi təfəkkür, birgə təlim və s.), İKT-yə və s. aid olan, o cümlədən təhsil işçilərinin fərdi maraq dairələri və əsas fəaliyyət sahələri ilə əlaqədar olan yeni bilik və bacarıqların aşılanması, peşə vərdişlərinin və müasir dünyagörüşünün formalaşdırılması | Modul üzrə təlimi müvəffəqiyyətlə başa vurmuş dinləyici:<br>• peşə fəaliyyəti üzrə yeni texnologiyalardan, innovativ nəzəriyyələrdən, üsullardan və qabaqcıl təcrübədən istifadənin əhəmiyyətini şərh edir;<br>• öz peşə fəaliyyətində yeni texnologiyalardan, innovasiyalardan və qabaqcıl təcrübədən istifadə etmək üçün bacarıq və vərdişlərə, müasir dünyagörüşünə malik olduğunu nümayiş etdirir;<br>• fərdi maraqlarının, tələbat və ehtiyaclarının təmin olunduğunu nümayiş etdirir. |

Rəhbər və pedaqoji kadrların ayrı-ayrı kateqoriyaları üçün modullar üzrə xüsusi məqsədlər və gözlənilən təlim nəticələri müvafiq proqramlar vasitəsi ilə müəyyən edilir.

**3.2. İxtisasartırma dövrü və ixtisasartırmanın minimum həddi.** Təhsil müəssisələrində çalışan rəhbər və pedaqoji kadrların ayrı-ayrı kateqoriyaları üçün bir ixtisasatırma dövrü, bu dövr üçün təlimin ümumi və modullar üzrə minimum həcmi aşağıdakı cədvəllə müəyyən edilir. Hər bir rəhbər və pedaqoji kadr bir ixtisasartırma dövründə öz seçiminə uyğun olaraq modullar üzrə müvafiq proqram çərçivəsinə daxil olan bir və ya bir neçə proqramda iştirak etməklə nəzərdə tutulmuş minimum təlim kursu keçməlidir.

## Rəhbər və pedaqoji kadrların ayrı-ayrı kateqoriyaları üçün bir ixtisasatırma dövrü, bu dövr üçün təlimin ümumi və modullar üzrə minimum həcmi

| № | Kateqoriya | Bir ixtisas-artırma dövrü, il | I modul | | II modul | | III modul | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **Saat** | **Kredit** | **Saat** | **Kredit** | **Saat** | **Kredit** | **Saat** | **Kredit** |
| 1. | Məktəbəqədər təhsil müəssisələrinin metodistləri və tərbiyəçiləri | 3 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 2. | Məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri | 3 | 60 | 10 | 30 | 5 | 30 | 5 | **120** | **20** |
| 3. | Məktəbəqədər təhsil müəssisələrinin musiqi rəhbərləri | 5 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 4. | Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrinin müəllim (tərbiyəçi)-loqoped və müəllim (tərbiyəçi)-defektoloqları | 5 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 5. | Ümumi təhsil müəssisələrinin rəhbərləri | 5 | 60 | 10 | 30 | 5 | 30 | 5 | **120** | **20** |
| 6. | Ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinin müəllimləri | 5 | 30 | 5 | 60 | 10 | 30 | 5 | **120** | **20** |
| 7. | Ümumi təhsil müəssisələrinin gənclərin çağırışaqədərki hazırlıq rəhbərləri | 5 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 8. | Praktik psixoloqlar | 3 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 9. | Kitabxanaçılar və kitabxana müdirləri | 3 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 10. | Ümumi təhsil müəssisələrinin tərbiyəçiləri | 5 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 11. | Ümumi təhsil müəssisələrinin uşaq birliyi təşkilatı rəhbərləri | 5 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 12. | İlk peşə-ixtisas təhsili müəssisələrinin rəhbərləri | 5 | 60 | 10 | 30 | 5 | 30 | 5 | **120** | **20** |
| 13. | İlk peşə-ixtisas təhsili müəssisələrinin baş və istehsalat təlimi ustaları | 3 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 14. | İlk peşə-ixtisas təhsili müəssisələrinin peşə-ixtisas fənn müəllimləri | 5 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 15. | Məktəbdənkənar təhsil müəssisələrinin metodistləri və təlimatçıları | 5 | 30 | 5 | 30 | 5 | 30 | 5 | **90** | **15** |
| 16. | Məktəbdənkənar təhsil müəssisələrinin rəhbərləri | 5 | 60 | 10 | 30 | 5 | 30 | 5 | **120** | **20** |

**3.3. İxtisasartırma proqramları.** İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsində rəhbər və pedaqoji kadrların ayrı-ayrı kateqoriyaları üçün hər ixtisasartırma modulu üzrə nəzərdə tutulan proqramların siyahısı verilir. Proqramlar modullar üzrə təlimin minimum həddindən asılı olaraq iki həftəlik (60 saat), bir həftəlik (30 saat) və qısa müddətli (30 saatdan az) ola bilər[1].

Hər bir proqramın məqsədi, vəzifələri, məzmunu, təlim strategiyaları və gözlənilən təlim nəticələri əlavə təhsil müəssisələri tərəfindən hazırlanır. Bu zaman ölkə, region, müəssisə səviyyəsində ehtiyaclar və dinləyicilərin fərdi maraqları təhlil edilərək nəzərə alınmalıdır.

Proqramlar hazırlanarkən aşağıdakı ümumi tələblər gözlənilməlidir:

- ixtisasartırma modulları və təlim proqramları arasında əlaqələr təmin olunmalıdır;
- ixtisasartırma proqramlarının məzmunu cəmiyyətin və təhsilalanın təlabatına uyğun olmalıdır, daim təkmilləşdirilməli və yeniləşdirilməlidir;
- ixtisasartırma proqramlarının hazırlanması və təlimin qiymətləndirilməsi zamanı müvafiq kateqoriyadan olan dinləyicilər üçün müvafiq ixtisas tələblərinə uyğun müəyyənləşdirilmiş standartlar nəzərə alınmalıdır;
- təlim texnologiyalarının interaktivliyi və çevikliyi təmin olunmalıdır;
- ixtisasartırma proqramları nəticəyönümlü və şəxsiyyətyönümlü olmalıdır;
- təlimin praktik, inkişafetdirici və qabaqlayıcı xarakteri ön plana çəkilməlidir;
- dinləyicilərin əldə etdiyi bilik, bacarıq və vərdişlərin onların praktik fəaliyyəti ilə əlaqələndirilməsi təmin olunmalıdır.

**3.4. İxtisasartırma kreditləri.** Bu və ya digər proqramı müvəffəqiyyətlə başa vuran hər bir dinləyici təlimin sonunda müvafiq təhsil kreditləri əldə edir. Qaydaya uyğun olaraq bir ixtisasartırma təhsili krediti hər bir ixtisasartırma proqramının 6 təlim saatına bərabər tutulur. Rəhbər və pedaqoji kadrların ayrı-ayrı kateqoriyaları üçün bir ixtisasatırma dövründə toplanılan təhsil kreditlərinin minimum miqdarı yuxarıdakı cədvəllə müəyyən edilir. Rəhbər və pedaqoji kadrlar bir ixtisasartırma dövründə hər modul üzrə nəzərdə tutulmuş təhsil kreditlərini öz seçiminə uyğun olaraq bir və ya bir neçə proqramda iştirak etməklə toplaya bilərlər.

## 4. İXTİSASARTIRMA TƏHSİLİ ÜZRƏ PEDAQOJİ PROSESİN TƏŞKİLİ PRİNSİPLƏRİ VƏ TƏLİM STRATEGİYALARI

**4.1. Pedaqoji prosesin təşkili prinsipləri.** İxtisasartırma təhsilində pedaqoji proses aşağıdakı prinsiplər əsasında qurulur.

*Pedaqoji prosesin tamlığı.* Pedaqoji prosesdə təlim məqsədlərinin reallaşdırılması kompleks şəkildə həyata keçirilir, onun zəminində isə məzmun, öyrədən və öyrənənin fəaliyyətini əhatə edən metod və vasitələr müəyyənləşdirilir.

*Təlimdə bərabər imkanların yaradılması.* Pedaqoji proses təlimdə bütün dinləyicilərə eyni şərait yaratmaqla onların potensial imkanlarından maksimum istifadə edir, eyni tələblərdən çıxış edir və güzəştlərə yol vermir.

*Şəxsiyyətyönümlülük.* Pedaqoji proses dinləyicinin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsinə, mənimsədiyi informasiyaların səmərəli şəkildə tətbiqinə xidmət etməklə yanaşı, onun tələbat və ehtiyaclarını nəzərə almaqla təşkil edilir.

*İnkişafyönümlülük.* Pedaqoji proses daima dinləyicinin tədqiqatçı, yaradıcı, axtarışda olan mütəxəssis kimi hazırlanmasına yönəldilir, ona, öz üzərində çalışmağın, özünütəhsilin fasiləsiz olaraq davam etdirilməsinin vacibliyini və əhəmiyyətini qavradır. Təlimçi (öyrədən) müasir təhsil konsepsiyalarını bilməklə tədris etdiyi proqramın məqsədlərini aydın izah edir və bunun üçün lazım olan tədris materiallarını müəyyənləşdirir, dinləyiciləri müzakirəyə cəlb edir, düşünmə və müstəqil fikir yürütmə qabiliyyətlərini inkişaf etdirir.

---

[1] Birinci və ikinci modullar üzrə qısa müddətli proqramların hazırlanması və onların həcmi Təhsil Nazirliyi tərəfindən cari strateji məqsədlərə uyğun olaraq təklif edilir. Üçüncü modul üzrə proqramlar və onların həcmi əlavə təhsil müəssisəsi tərəfindən müəyyən edilir, bu halda proqramlar dinləyicilərin arzu və istəklərinə uyğun olaraq hazırlanır.

*Fəaliyyətin stimullaşdırılması.* Pedaqoji proses öyrədən və öyrənən arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığa əsaslandığından stimullaşdırma təlimçinin dinləyicinin uğurlarını dəyərləndirməklə onun daha yüksək təlim nəticələrinə istiqamətləndirilməsini təmin edir. Dinləyici bazar iqtisadiyyatı şəraitinin tələbi olan rəqabətə tab gətirmək üçün dərin biliklərə və çevik bacarıqlara yiyələnməyə şəxsi stimul göstərir.

*Dəstəkləyici mühitin yaradılması.* Pedaqoji proses müasir maddi-texniki baza ilə təchiz edilir, demokratik və humanitar prinsiplər əsasında sağlam, mənəvi-psixoloji mühitdə təşkil edilir, həm öyrədənlərin, həm də öyrənənlərin maraq və ehtiyaclarının təmin edilməsi, təlimin effektivliyinin yüksəldilməsi üçün zəmin yaradır.

*Təlim fəaliyyəti ilə tədqiqatın qarşılıqlı əlaqəsi.* Dinləyicilər təlimin ilk mərhələlərindən tədqiqatlara cəlb edilir, məlumatlar toplayır, fərdi layihələri və ya digər tədqiqatları həyata keçirirlər.

*Pedaqoji prosesin peşə fəaliyyəti ilə əlaqələndirilməsi.* Pedaqoji proses təlimin peşə fəaliyyəti ilə əlaqələndirilməsini, tədris olunan proqramların peşə istiqamətində qurulmasını və dinləyicinin praktik olaraq hazırlanmasını təmin edir.

**4.2. Təlimin təşkilinin forma və üsulları.** Təlim prosesində dinləyicilərin təşəbbüskarlığına, yaradıcı fəaliyyətinə imkan verən, tədqiqatçılıq bacarıqlarını stimullaşdıran təlim formalarına geniş yer ayrılmalıdır. Yeni pedaqoji texnologiyaları və müasir təlim yanaşmalarını əks etdirən dərs-ekskursiya, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verilməli, təlim prosesinin mütəhərrikliyini təmin edən müxtəlif iş formalarından (kollektiv iş, qruplarla iş, cütlərlə iş, fərdi iş) istifadə olunmalıdır. Təlim prosesində dialoqa, yaradıcı fəaliyyətə əsaslanan fəal (interaktiv) metodlardan istifadə edilməlidir. Həmçinin dinləyicilərin müəyyən bilik, bacarıq və vərdişlərə malik olması, onların əvvəlki iş təcrübəsi nəzərə alınmalıdır.

## 5. İXTİSASARTIRMA TƏHSİLİNİN MONİTORİNQİ, QİYMƏTLƏNDİRMƏSİ VƏ SERTİFİKATLAŞDIRILMASI

**5.1. Monitorinq və qiymətləndirmə.** İxtisasartırma təhsili sistemində təlim prosesinin keyfiyyətinin və dinləyicilərin nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi ardıcıl və sistemli proses olub, təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi bilavasitə ixtisasartırma təhsilinin keyfiyyətinin dəyərləndirilməsinə və nəticə etibarilə onun yüksəldilməsinə xidmət edir.

Təlim prosesinin keyfiyyətinin və dinləyicilərin nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi ixtisasartırma təhsilinin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların toplanması və onların təhlili ilə müşayiət olunur.

Monitorinq və qiymətləndirmənin nəticələri Azərbaycanda ixtisasartırma təhsili siyasətinin qurulması və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi üçün mənbə hesab edilir.

Təlim prosesinin və dinləyicilərin nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi *daxili* (əlavə təhsil müəssisəsi tərəfindən monitorinq və özünüqiymətləndirmə yolu ilə) və *xarici* (Təhsil Nazirliyi tərəfindən yaradılmış və tərkibinə qeyri-hökumət təşkilatlarının və ictimai qurumların da nümayəndələri daxil edilən xüsusi qruplar tərəfindən) olmaqla aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- **ilkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə)** dinləyicilərin nələri bildiyini müəyyən edir və təlimin düzgun qurulmasında təlimçiyə köməklik göstərir. Diaqnostik qiymətləndirmənin təhlili əsasında dinləyicilərin kurslardan nə gözlədikləri, əlavə ehtiyac və tələbatları öyrənilir və bunları nəzərə alaraq kursun proqramında lazımi dəyişikliklər edilir və fəaliyyətin planlaşdırılması aparılır.
- **dinləyicilərin irəliləyişlərinin monitorinqi (formativ qiymətləndirmə)** vasitəsilə təlimin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya dinləyicinin daha irəliyə addım atması üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir.

Bu qiymətləndirmənin əsasında öyrənənlərin əldə etdiyi nailiyyətlər və öyrədənin məqsədə nə dərəcədə nail olduğu müəyyən edilməlidir. Belə qiymətləndirməyə əsaslanaraq öyrədən növbəti

məşğələləri planlaşdırmalı, hansı təlim metodundan istifadə edilməsinin daha səmərəli olduğunu müəyyən etməlidir. Formativ qiymətləndirmə həmçinin təlim prosesində və ya öyrənənin davranışında baş verən dəyişiklikləri müəyyən etməyə və bunun nəticəsində fəaliyyətin modifikasiyasına, təlimin daha səmərəli və effektiv həyata keçirilməsinə yardım edə bilər.

- **yekun (summativ) qiymətləndirmə** standartların mənimsənilməsi istiqamətində dinləyicilərin əldə etdiyi nailiyyətləri və təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə aparılır.
- **təlim prosesinin keyfiyyətinin qiymətləndirilməsi** nəticəsində təlimin ümumi və xüsusi məqsədlərinə nə dərəcədə nail olunduğu, o cümlədən təlimçinin səriştəsi, təlim prosesinin səmərəliliyi və effektivliliyi müəyyənləşdirilir.

Təlim prosesinin keyfiyyətinin və dinləyicilərin nailiyyətlərinin yekun qiymətləndirilməsinin nəticələri sonrakı fəaliyyətin planlaşdırılmasına, kursun məzmununun və təlim metodlarının təkmilləşdirilməsinə, həmçinin mövcud olan resurslardan istifadə edərək səmərəli tədris üçün strategiyaların tətbiqinə kömək edə bilər.

**5.2. Sertifikatların verilməsi.** "Qayda"ya müvafiq olaraq yekun qiymətləndirmə dinləyicilərə müvafiq sertifikatların verilməsi ilə başa çatır. Sertifikatda modulun adı, proqramın adı, təlim saatları, müvafiq kreditlərin sayı, təlimçinin və ixtisasartırma müəssisəsinin adı qeyd olunur.

Sertifikatın surəti və toplanılan kreditlər haqqında məlumatlar hər bir dinləyicinin şəxsi işinə əlavə edilir. Sertifikatların dərəcəsi və toplanılan kreditlər müvafiq stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi zamanı nəzərə alınır.

## 6. RƏHBƏR VƏ PEDAQOJİ KADRLARIN AYRI-AYRI KATEQORİYALARI ÜÇÜN İXTİSASARTIRMA TƏHSİLİNİN KURİKULUM ÇƏRÇİVƏLƏRİ

### 6.1. Məktəbəqədər təhsil müəssisələrinin metodistləri və tərbiyəçiləri üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi

| № | Modulllar | Modul üzrə tələb olunan təlim saatları | Modul üzrə tələb olunan təhsil kreditləri | Proqramlar | Proqramlar üzrə təlim saatları | Proqramlar üzrə təhsil kreditləri |
|---|---|---|---|---|---|---|
| **1.** | **Peşə fəaliyyətinin ümumi əsasları üzrə təlim** | **30** | **5** | Məktəbəqədər pedaqogika və uşaq psixologiyası: müasir yanaşmalar | 30 | 5 |
| | | | | İnklüziv və diferensial-laşdırılmış təhsil | 30 | 5 |
| | | | | Məktəbəqədər yaşlı uşaqların inkişaf etdirilməsi yolları | 30 | 5 |
| | | | | Məktəbəqədər təhsilin əsasları | 30 | 5 |
| | | | | Pedaqoji ünsiyyət | 30 | 5 |
| | | | | Pedaqoji etika qaydaları | 30 | 5 |
| | | | | Məktəbəqədər təhsildə əməyin mühafizəsi və təklükəsizlik texnikaları | 30 | 5 |
| | | | | Məktəbəqədər təhsildə inteqrativ yanaşmalar | 30 | 5 |
| **2.** | **İxtisas sahələri üzrə təlim** | **30** | **5** | Məktəbəqədər təhsilin kurikulumu | 30 | 5 |
| | | | | Məktəbəqədər təhsildə İKT-nin tətbiqi | 30 | 5 |
| | | | | Məktəbəqədər təhsil müəssisələrində müxtəlif yaş qruplarında təlim resurslarından istifadə metodikası | 30 | 5 |
| | | | | Məktəbəqədər təhsildə valideynlərlə əməkdaşlıq və əlaqəli iş formaları | 30 | 5 |
| | | | | Məktəbəqədər təhsildə fəal təlim üsullarından istifadə | 30 | 5 |
| **3.** | **İnnovasiyalar üzrə təlim** | **30** | **5** | Əlavə təhsil müəssisələri tərəfindən təklif edilən təlim proqramları[2] | | |

[2] Əlavə təhsil müəssisələri tərəfindən ayrı-ayrı kateqoriyalar üçün III modula dair aşağıdakı müvafiq nümunəvi proqramlar təklif edilə bilər: fəal (interaktiv) təlim; tənqidi təfəkkür; inklüziv təhsil; İKT-dən istifadə bacarıqları (sadələşdirilmiş, orta və mürəkkəb səviyyəli); klinik müşahidə; çoxşaxəli əqli bacarıqlar; təhsilin keyfiyyətinin tənzimlənməsi; layihənin idarəolunması; gərginliyin və dəyişikliyin tənzimlənməsi; peşəkar özünütəkmilləşdirmə və vəzifədə irəliləmə üsulları; emosional düşüncə və onun inkişaf etdirilməsi strategiyaları; kurikulumun tərtib və tətbiq edilməsi, dəyərləndirilməsi; tədris/təlim nümunələri və strategiyaları; təhsil müəssisələrində vəsaitlərin idarəolunması; sinif rəhbərliyi və sinif otağının idarəolunması; təhsil müəssisələrində sosial iş; təhsil marketinqi; təhsilin proqnozlaşdırması və layihələşdirilməsi; mədəniyyətlərarası təhsil; ünsiyyət və ictimai münasibətlər; insanlar və müəssisələrarası ünsiyyət; kurikulumdankənar tədbirlərin pedaqogikası; böyüklər üçün psixo-pedaqogika; pedaqoji tibb/səhiyyə; məktəb və icmalar; təhsil və mədəniyyət: Azərbaycanda pedaqoji fikir tarixi; Azərbaycanda və dünyada müasir təhsil təmayülləri; beynəlxalq təhsilin müqayisəsi: sistemlər, üsullar; gənc müəllimlər üçün metodologiyalar, məktəbəqədər təhsildə səhhətqoruyucu texnologiya, məktəbəqər təhsildə diaqnostika və korreksiya işləri və s. Bu proqramlar daha çox dinləyicilərin tələbatlarına uyğun olmalı, onların həcmi 6 təlim saatından az və 30 təlim saatından çox olmamalıdır.

## 6.2. Məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi

| № | Modulllar | Modul üzrə tələb olunan təlim saatları | Modul üzrə tələb olunan təhsil kreditləri | Proqramlar | Proqramlar üzrə təlim saatları | Proqramlar üzrə təhsil kreditləri |
|---|---|---|---|---|---|---|
| 1. | **Peşə fəaliyyətinin ümumi əsasları üzrə təlim** | **60** | **10** | Məktəbəqədər təhsilin məzmunu və təşkili formaları | 30 | 5 |
| | | | | Ümumi pedaqogika və psixologiya: müasir yanaşmalar | 30 | 5 |
| | | | | Məktəbəqədər pedaqogika və uşaq psixologiyası: müasir yanaşmalar | 30 | 5 |
